UOT 792 **T E A T R S Ə N Ə T İ**

**Şəhla Kərim qızı Heydərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**e-mail: rejissor71@mail. ru**

# ÇİN TEATRININ STRUKTUR XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Çin teatr sənətinin orijinallığı nitq, vokal, musiqi, rəqs və akrobatika kimi estetik komponentlərin birləşməsi ilə bağlı idi. Dramaturq tamaşanın musiqisini ənənəvi Çin melodiyalarından seçməklə bərabər, eyni zamanda pyeslərin səhnə quruluşu ilə bağlı da məsləhətlər verirdi. Zaju tamaşalarının səhnələri üçün iki fərqli formada olan binadan istifadə edilirdi. Həmin səhnələr binanın mərkəzində yerləşir, digəri isə sirk arenalar xatırladan kabinələr olaraq yerdən yuxarı qaldırılmış məbəd formalı olurdu. Tamaşaçılar səhnəyə bitişik yerləşdirilir, naxışlı plakatlarda truppanın və aparıcı aktyorların adları qeyd edilirdi.

**Açar sözlər:** Çin teatrı, aktyor, tamaşa, səhnə, rol, adət, rəssamlıq, kino

Çində teatr sənətinin təşəkkülü XII əsrin əvvəllərinə aid edilsə də, mənbələrdə eramızdan əvvəl mahnı oxumağı, rəqs etməyi bacaran sənətkarların mövcudluğu haqqında qeydlər var. Sonrakı dövrlərin yazılı abidələrində çan-yu (müğənni, ifaçı aktyor) və pai-yu (komediyaçı, zarafatçı, aktyor) terminlərinə rast gəlinir.

Daha sonralar tamaşanın yeni forması yaranır. Bu tamaşalar böyük bayramlarda açıq havada keçirilirdi. Onlara müxtəlif sirk tamaşaları – akrobatika, qılıncoynatma, ip üzərində gəzinti, güc yarışları, heyvan fiqurlarının nəhəng maketləri ilə rəqslər daxildir. Tarixi mövzulara əsaslanan teatrallaşdırılmış rəqs tamaşaları çox məşhurdur. Belə ki, "Qılınclarla rəqs" müasir Xiqu teatrında da nümayiş etdirilir. Tamaşalarda komik xarakterli dialoqlar var və eyni zamanda tamaşalarda müxtəlif rolları ifa edən aktyorlar parlaq maskalar, xüsusi geyimlər, rekvizitlərdən istifadə edirlər.

XII-XIV əsrlərdə yeni tamaşa növü - "Zaju" yarandı. Bu janr komik improvizasiya səhnələri, yeni qəhrəmanların meydana çıxması və yeni rolların formalaşması üçün geniş şərait yaradırdı. Həmçinin, ölkənin cənubunda böyük Nanxi xalq dramları səhnələşdirilirdi. Bu dramlardan – "Çjao adlı qadın haqqında", "Metropoliten imtahanlarını birinci keçən Çjan Xie" və s. adlarını misal göstərmək olar. Həmin dramların tamaşaları kabinələrdə, hasarlanmış,

örtülü ərazilərdə verilirdi və tamaşaçılar skamyalarda əyləşirdilər. Oyun səhnəsi Stend Lanzi adlanırdı və tamaşa zalı ilə eyni səviyyədə idi. Tədqiqatçılar XIII- XIV əsrləri Zaju dramının çiçəklənmə dövrü hesab edirlər.

Çin teatr sənətinin orijinallığı nitq, vokal, musiqi, rəqs, və akrobatika kimi estetik komponentlərin birləşməsi ilə bağlı idi. Dramaturq tamaşanın musiqisini ənənəvi Çin melodiyalarından seçməklə bərabər, eyni zamanda pyeslərin səhnə quruluşu ilə bağlı da məsləhətlər verirdi. Zaju tamaşalarının səhnələri üçün iki fərqli formada olan binadan istifadə edilirdi. Həmin səhnələr binanın mərkəzində yerləşir, digəri isə sirk arenalarını xatırladan kabinələr kimi yerdən yuxarı qaldırılmış məbəd formalı olurdu. Tamaşaçılar səhnəyə bitişik yerləşdirilir, naxışlı plakatlarda truppanın və aparıcı aktyorların adları qeyd edilirdi.

Ödənişli olan bu tamaşalar zamanı aktyorlara hədiyyə vermək ənənəsi də var idi. Truppaya, bir qayda olaraq, ailə üzvləri daxil idi və nadir hallarda kənardan aktyor götürülürdü. Kişi rollarını da qadınlar oynayırdılar. Bununla yanaşı, kişilərin qadın rollarını ifa etmə təcrübəsi də var idi. Yuan teatrının əsas formalarından biri cənub dramaturgiyasının əksər ənənələrini izləyən çuanqi dramı idi. Vaxt etibarilə uzun olan həmin tamaşalar, bir neçə gün ardıcıl olaraq oynanılırdı.

Çin teatrının növbəti inkişaf mərhələsi XIV-XVII əsrlərə təsadüf edir. Çin teatrının bu dövrdəki fəaliyyətinin iki əsas sahəsi var - Yuan və Kunşan. Musiqisi ritmə əsaslanan Yuan teatrından fərqli olaraq, Kunşan teatrı zəngin melodik müxtəlifliyi ilə seçilir, tamaşalar üçün musiqi bəstəkarlar tərəfindən yazılırdı. Kunşan teatrı böyük şöhrət taparaq bir sıra yerli teatrlara təsir göstərsə də XVIII əsrin sonu – XIX əsrin ortalarında öz populyarlığını itirir, sonralar tamamilə yox olur.

XVII-XIX əsrlər ərzində Çinin bir sıra böyük şəhərləri, o cümlədən, Pekin teatr mərkəzinə çevrildi. Bura yerli teatrların truppaları gəlir və böyük uğuru huabu (məşhur) adlı truppalar əldə edirdi. Yavaş-yavaş Pekində paytaxt teatrı kimi tanınan teatr formalaşmağa başladı. Bu truppalar arasında Anhui truppaları – Sanqing, Sisi, Çuntai və başqaları kifayət qədər məşhur idi. Müxtəlif uğurlu tamaşaları ilə Pekin teatrı yeni tipli tamaşalar yaratdı. XIX - XX əsrlərin sonlarında möhtəşəm sənət növünün meydana çıxmasına vəsilə oldu.

Çin dilində ekzotik "elektrik kölgələr" adını alan kino ilk dəfə (Çin filmi – "Üç krallıq" romanı əsasında Pekin operasının tamaşasından səhnələr) 1905-ci ildə lentə alınıb. Şanxayda və digər liman şəhərlərində ilk ictimai kinoteatrlar formalaşır. Çin hakimiyyəti ənənəvi ruhda filmlərə baxmaq qaydalarını müəyyən etdi. Belə ki, baxış zamanı kişilər və qadınlar ayrı oturmalı, kinoteatrlar gecə yarısından gec olmayaraq bağlanmalı idi. Əxlaqi-mənəvi dəyərlərə zidd olan filmlərin nümayişi ciddi şəkildə qadağan edildi.

Çin ənənəvi teatrında rolun psixoloji inkişafına, bir qayda olaraq, böyük diqqət yetirilmişdir. Çin teatrının aktyoru hissləri və zahiri ifadə üsullarını mənimsəməlidir. Çin ənənəvi teatr nəzəriyyəsi səkkiz psixoloji vəziyyət: zadəganlıq, alçaqlıq, zənginlik, yoxsulluq, axmaqlıq, dəlilik, xəstəlik, sərxoşluq və dörd əsas duyğu: sevinc, qəzəb, kədər, qorxu təklif edir. Bu kateqoriyaların hər biri xüsusi görünüş, intonasiya, jest və hərəkət tərzi tələb edirdi. Nəcibliyi çatdırmaq istəyən aktyor mütləq ifadəli baxışdan, qəltanlı səsdən, ağır yerişdən istifadə etməlidir. Bu konkretləşdirmələrin hamısı uzun əsrlərdən qalma ənənələrin nəticəsidir [2]. Qadın rollarını ifa etmək üçün kişi aktyorlardan xüsusi bacarıq tələb olunurdu. Bu məharət o qədər mükəmməl idi ki, qadınlar ədəb- ərkanı, qadınlığı kişi aktyorlardan öyrənmək üçün teatra gedirdilər. Bu, erkən uşaqlıqdan – 7-8 yaşdan başlayırdı. Bura toplumda tanınmış, hörmətli şəxslərin birbaşa zəmanətilə uşaqları qəbul edirdilər [3]. İfaçılıq ənənələri nəsildən-nəslə ötürülürdü. Təcrübəli aktyor öz təcrübəsini, adətən, övladları və nəvələri olan tələbələrinə çatdırırdı. Bütün göstərişlər tələbələr tərəfindən yerinə yetirilirdi və onlar vaxtlarının çoxunu sinifdə keçirirdilər. Onlar bədənlərinə tam nəzarət etməklə yanaşı, məsələn, rəssamlıq sənətini də öyrənirdilər ki, geyimlərinin rənginin və naxışının mənasını başa düşüb, mürəkkəb qrim edə bilsinlər.

Ənənənin təkmilləşməsi və inkişafı yalnız ciddi şəkildə müəyyən edilmiş sərhədlər daxilində mümkün olmuşdur. Məhz buna görə də ənənəvi teatrda aktyor dialoqu "jest dili" ilə ifadə etdiyi zaman ritmik və ahəngdar nitqə, dəqiq səhnə hərəkətinə yiyələnməsi çox vacib idi. Ənənəvi teatrda aktyorun plastikası, demək olar ki, pozalarda mükəmməlləşdirilmişdir. Qəhrəmanın hərəkəti tamaşanın şərtlərini deyil, onun xarakterini və hətta sosial mövqeyini göstərirdi. Belə ki, Çin teatrında sadə vətəndaş yeriyərkən ayaqlarını yanlara atır və bu zaman saqqalını sığallayır, müsbət hərbçi qəhrəman "pələng addımları" ilə yeriyir – sanki yerində sürüşüb donur, səhnəni tərk edərkən hərəkət tempini sürətləndirir, "möhtərəm matrona" yeriyərkən "cazibədar gözəllik"lə dizlərini sıxaraq ayaqlarını yerdən ayırmadan addımlayır. Hər cür bədii yaradıcılığın əsas qanununda deyilir: incəsənət həyatın inikası və dərk edilməsidir [4]. Bu baxımdan komik obrazın bir qədər fərqli tələsik və qeyri-adi yerişi olmalıdır.

Yuxarıda qeyd etdiklərimizə əsasən belə qənaətə gəlmək olar ki, ənənəvi Çin teatrı Şərq incəsənətinin inkişaf etmiş növlərindən biridir. Burada Avropa incəsənətindən fərqli yaradıcılıq baxışları mövcuddur. Hər bir millətin xalq kimi formalaşmasının, keçdiyi mənəvi-əxlaqi, ictimai-sosial proseslərin fəlsəfi izləri, çağdaş mədəniyyətinin kökləri öz təcəssümünü müxtəlif nümunələrdə tapıb [3]. Bəhs etdiyimiz teatr mədəniyyəti tədrici və mərhələli inkişafı ilə seçilir, eyni zamanda milli ənənəvi irs əsasında qəbul edilərək ona doğru irəliləyir.

## Ədəbiyyat siyahısı:


1. İ. İsrafilov – Stanislavski və aktyor sənətinin qrammatikası, Zərdabi Nəşr 2021
2. A. Talıbzadə - Şərq teatr tarixi, Qanun 2008
3. İ. Rəhimli – Azərbaycan teatr tarixi, Şərq-qərb 2017
4. B. Y. Zaxava Aktyor və rejissor sənəti, Maarif 1984



**Шахла Керим кызы Гейдарли**


## СТРУКТУРНЫЕ НЮАНСЫ КИТАЙСКОГО ТЕАТРА


**Резюме:** Своеобразие китайского театрального искусства было связано с сочетанием таких эстетических компонентов, как речь, вокал, музыка, танец, акробатика. Драматург не только подбирал музыку для спектакля из традиционных китайских мелодий, но и давал советы по сценографии спектаклей. Две разные формы здания использовались для сценических представлений. Эти сцены располагались в центре здания, а другие были в виде храма, приподнятого над землей, как будки, напоминающие цирковые арены. Зрителей размещали рядом со сценой, а название труппы и именаисполнителей главных ролей писали на узорчатых афишах.



**Ключевые слова:** Китайский театр, актер, спектакль, сцена



**Shahla Kerim qizi Heydarli**


## STRUCTURAL NUANCES OF CHINESE THEATRE


**Summary:** The originality of Chinese theatrical art was associated with a combination of such aesthetic components as speech, vocals, music, dance, and acrobatics. The playwright not only selected music for the performance from traditional Chinese melodies, but also gave advice on the scenography of performances. Two different forms of the building were used for the performance scenes. These stages were located in the center of the building, while others were in the form of a temple raised above the ground, like booths, reminiscent of circus arenas. The audience was placed next to the stage, and the names of the troupe and the performers of the main roles were written on patterned posters.



**Key words:** ChineseTheater, actor, performance, stage

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19. 04. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim Elçin Cəfərov**

K İ N O  V Ə  T E L E V İ Z İ Y A

UOT 791.6

**Rəfail Əliyeviç Qəmbərov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Əməkdar incəsənət xadimi, professor**
**e-mail: rafail. gambarov@gmail. com**

## AZƏRBAYCAN KİNO SƏNƏTİNİN İNKİŞAFINDA RAFİQ QULİYEVİN ROLU

**Xülasə:** Təqdim olunan məqalədə professor Rafiq Quliyevin milli kino sənətinin inkişafındakı xidmətləri araşdırılmışdır. Azərbaycanın Əməkdar incəsənət xadimi, Şöhrət ordenli kinooperator, rejissor, ssenarist, prodüser, montaj rejissoru və təcrübəli pedaqoq Rafiq Quliyev milli kino sənətinin inkişafında mühüm xidmətlər göstərmişdir. Məqalədə öncə milli kino sənətinin yaranması və inkişaf yoluna qısa nəzər salınır. Ardınca isə Rafiq Quliyevin çoxşaxəli yaradıcılığı məqalədə öz əksini tapır. Rafiq Quliyev öz elmi əsərlərində kino sənətinin aktual problemlərinə toxunur. Yaratdığı əsərlərdə kino-foto və televiziyada işıqlandırma texnikasını aktual problem kimi ortaya qoyaraq bildirir ki, vizual obrazların ekran həlli, onların tamaşaçı auditoriyasına ifadəli və inandırıcı formada çatdırılması məhz işıq konstruksiyası və onun elementləri vasitəsilə reallaşdırılır. Eyni zamanda, məqalədə Rafiq Quliyevin "Ulu Öndər" sənədli filmindən bəhs olunur.

**Açar sözlər:** kinooperator, Rafiq Quliyev, milli kino sənəti, işıqlandırma texnikası, sənədli film

Azərbaycanın Əməkdar incəsənət xadimi, Şöhrət ordenli kinooperator, rejissor, ssenarist, prodüser, montaj rejissoru, professor Rafiq Quliyev milli kino sənətinin inkişafında mühüm xidmətlər göstərmişdir. Rafiq Quliyevin yaradıcılığını təsəvvürümüzdə canlandırmaq üçün milli kino sənətinin yaranması və inkişaf yoluna qısa nəzər salmağımız vacibdir.

Azərbaycanda kino sənətinin əsası 1898-ci ildə qoyulmuş və bu dövrdən başlayaraq günümüzə kimi minlərlə bir-birindən maraqlı filmlər çəkilmişdir.

XIX əsrin sonlarında Bakı "qara qızıl" hesabına Zaqafqaziyanın mədəniyyət mərkəzi kimi tanınmağa başlayır. 1915-1916-cı illərdə "Filma" Səhmdar Cəmiyyəti İbrahim Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk tammetrajlı Azərbaycan bədii filminin və bir neçə digər filmlərin çəkilişinə başlayır. Filmi çəkmək üçün Peterburqdan rejissor Boris Svetlov və operator Qriqoriy Lemberq dəvət edilir. Təbiət mənzərələri Bakı və

Bakı ətrafında, Balaxanıda, Binəqədidə, Zığ və sahil kənarında çəkilir. O vaxt Balaxanıda neft mədənində baş vermiş yanğın da filmə daxil edilərək tamaşaçılar üçün çox maraqlı epizodlardan biri olur. Bu ikiseriyalı bədii film 1916-cı ildə ekranlarda yayımlanaraq böyük şöhrət qazanır. Məşhur tarzən Qurban Pirimov sənətşünas N. Sadıxovla söhbətində bu barədə danışarkən deyir: "Filmin "Toy" və "Kazinoda şənlik" epizodlarında xanəndə Cabbar ilə mən də çəkilmişdim. Mən çalırdım, Cabbar oxuyurdu" [1; s. 18].

1916-cı ildə Bakıda Ü. Hacıbəylinin "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkilir və üç ildən sonra Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə "Təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirilir.

1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olunaraq, burada ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirləri həyata keçirilirdi [2].

Foto-Kino İdarəsi V. V. Vallyuzekin rejissorluğu ilə ikiseriyalı "Qız Qalası əfsanəsi" adlı bədii filmini ekranlara çıxardı. Etnoqrafik cəhətdən maraqlı olan bu filmdə müəlliflər Şərq ekzotikasından qaça bilməmişdilər. Xurafat və cəhalətə qarşı mübarizə, inqilab, qadın azadlığı ötən əsrin 20-ci illərində Azərbaycan kinosunun əsas mövzusu idi. Bu mövzuda yaranmış filmlərdən: A. M. Şərifzadə və A. Valovonun rejissorluğu ilə "Bismillah", "Hacı Qara", A. İ. Bek-Nazarovun rejissorluğu ilə "Vulkan üzərində ev" filmlərini qeyd etmək olar. Öz azadlığı uğrunda mübarizə aparan Azərbaycan qadını obrazını bədii və real şəkildə ifadə edən "Sevil" həmin dövrdə yaradılmış uğurlu filmlərdəndir.

İkinci dünya müharibəsi illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" filmləri böyük şöhrət qazanır. M. F. Axundovun həyat və fəaliyyətinə dair "Səbuhi" filmi, vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə" filmi və müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" filmi xalq arasında sevilərək nümayiş etdirilir.

1945-ci ildə Ü. Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası yenidən ekranlaşdırıldı. Rejissorlar R. Təhmasib və N. Leşşenko milli koloriti və xalq yumorunu saxlamaqla parlaq, realist kinokomediya yaratmağa nail oldular.

Azərbaycan kinosunun yeni inkişaf mərhələsi 50-ci illərin ortalarından başlayır. Bu dövrdə milli ssenarist, rejissor, operator, rəssam kadrları yetişir və onlardan bir çoxu Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alır. Həmin illərdə bədii filmlərin çəkilişinin sayca çoxalması onların mövzu dairəsinin genişlənməsinə səbəb oldu. Filmlərdə fəhlə və kolxozçuların, müxtəlif peşə sahiblərinin əməyi və həyatı öz əksini tapır.

XX əsrin 60-70-ci illərində gənclərin böyük bir qrupunun kinematoqrafiyaya gəlməsi ilə bu sahədə yeni inkişaf mərhələsi baş verir. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması kimi mövzular üstünlük təşkil edir.

70-80-ci illərdə Azərbaycanda tarixi-inqilabi janrda bir sıra maraqlı və orijinal filmlər çəkilmişdir. Məsələn: "Nəsimi" filmində feodal dünyasının haqsızlıqlarına qarşı çıxan şairin həyatı və o dövrün sosial və əxlaqi problemləri öz əksini tapmışdır. 1975-ci ildə rejissor Tofiq Tağızadənin çəkdiyi "Dədə Qorqud" filmi poetikliyi ilə fərqlənir. "Babək" filmində isə IX əsr Azərbaycan sərkərdəsi Babəkin başçılığı ilə Xilafətə qarşı xalqın mübarizəsi təsvir edilmişdir. 1982-ci ildə Eldar Quliyevin rejissorluğu ilə işıq üzü görən "Nizami" filmində Nizami Gəncəvinin, 1986-cı ildə Anarın rejissorluğu ilə "Qəm pəncərəsi" filmində Cəlil Məmmədquluzadənin obrazı peşəkarlıqla canlandırılmışdır.

1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi cəmiyyət qarşında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin tədqiqat istiqamətlərinə çevrilmişdir.

Müstəqillik illərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev kinematoqrafiyanın inkişafına xüsusi diqqət yetirir. Belə ki, kino sənətini çox yüksək qiymətləndirərək, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarla yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını xüsusi vurğulamışdır. Heydər Əliyevin "Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında" 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən hər il avqustun 2-si ölkəmizdə "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur [2].

Bu gün milli kino sənəti müasir texnologiya sahəsində inkişaf edərək, yeni-yeni filmlər yaranır. Bu sahədə yorulmadan çalışan peşəkar mütəxəssislərdən biri də Rafiq Quliyevdir. O, təcrübəli pedaqoq kimi uzun illərdir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində gənc kino mütəxəssislərinin yetişməsində bütün bilik və bacarığını əsirgəmir. Hələ təhsil aldığı illərdə M. Kosırevlə çəkdiyi "Gənc Mixailin görüntüsü" adlı diplom filmi xüsusi diqqət çəkərək Monreal film festivalında "Ən yaxşı film" və "Ən yaxşı fantaziya" mükafatlarına layiq görülüb və festival rəhbərliyi tərəfindən "Tələbə Filmlərinin Ümumdünya Proqramı"na salınaraq London, Berlin, Rimini, eləcə də, digər film festivallarında nümayiş etdirilib. 1991-ci ildən Rafiq Quliyev bədii filmlərin ali dərəcəli quruluşçu operatoru kimi fəaliyyət göstərir. O, Kinostudiyada çalışmaqla yanaşı, Türkiyənin STV kanalının Azərbaycan təmsilçiliyində televiziya rəhbəri vəzifəsində çalışıb və Azərbaycanla bağlı həqiqətləri dünyaya çatdıran "Xəzərdən dünyaya" verilişinin Asiya və Avropa ölkələrinə yayımını təşkil edir. Rafiq

Quliyevin təşəbbüsü ilə "Lider" televiziyasında "Azərbaycan" redaksiyası yaranır və müxtəlif səpkili 237 televiziya filminin ərsəyə gəlməsinə rəhbərlik edir. Onun iştirakı ilə "Çövkən", "Çölçü", "Fransız", "Cin mikrorayonda", "Cansıxıcı əhvalat", "Çətin sınaqlar", "Gecə zəngi", "Girov", "Axırıncı aşırıma qədər", "Hikmət xəzinəsi" və sairə onlarla film ərsəyə gəlmişdir. Serbiyanın Zlatibor şəhərində "Zlatibor-2013" idman filmləri üzrə ikinci beynəlxalq film festivalında Rafiq Quliyevin "Çövkən" filmi idmanda Azərbaycanın milli adət-ənənələrinin uğurla tamaşaçılara çatdırılmasına görə festivalın əsas mükafatına layiq görülmüşdür [4; s. 3].

Rafiq Quliyev 1997-ci ildən bu günə kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kino-televiziya sənətləri" kafedrasında elmi- pedaqoji fəaliyyətlə məşğuldur.

O, 2008-ci ildə "Azərbaycan səssiz kinosunun təsvir irsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Rafiq Quliyev kinooperator sənətinin müxtəlif sahələrinə həsr olunmuş məqalə və elmi-metodiki işlərin müəllifidir. Belə ki, "Kinematoqrafik təsvir-bədii yaradıcılıq forması kimi", "Bədii fotoqrafiyadan kinematoqrafik təsvirə qədər", "Kinematoqrafik təsvir - Azərbaycan səssiz kinosunun əsas nəql forması və ünsiyyət vasitəsi kimi", "Kinokadrın kompozisiyası. Onu təşkil edən komponentlərin mənbələri və təşəkkülü" və sairə elmi məqalələrində kino sənətinin nəzəri sahəsini araşdırır. Kino-foto və televiziyada işıqlandırma texnikasını aktual problem kimi ortaya qoyaraq bildirir ki, vizual obrazların ekran həlli, onların tamaşaçı auditoriyasına ifadəli və inandırıcı formada çatdırılması məhz işıq konstruksiyası və onun elementləri vasitəsilə reallaşdırılır. Aktyor çəkiliş meydançasında ssenaridən irəli gələn mətnlə rejissorun tapşırıqlarını canlandırmağa çalışır və təsəvvür edək ki, həmin səhnə tamamilə işıqsız çəkilir. Belə olan halda Azərbaycan televiziyalarının əksəriyyətində müşahidə etdiyimiz bəsit və səthi görüntülərin şahidinə çevriləcəyik. İşıqlandırma texnikasından istifadə etmək qabiliyyətinə malik olan peşəkar operator xarakterik işıq rəsmini quraraq, mühitin durumunu, cisimlərin forma və fakturasını, ekrandakı obrazların xarakterik cizgilərini, onun daxili aləmini və yaşantılarını üçölçülü təsvir vasitəsilə qabarıqlaşdırır. Deməli, işıq-operator sənəti mühüm əhəmiyyət kəsb edən peşə atributlarından və vizual ifadə vasitələrindəndir. Rafiq Quliyev öz əsərlərində işıq mənbələrinin təsnifatı, təbii və süni işıq mənbələri, onların fotometrik göstəriciləri, impuls və diodlu lampalar haqqında geniş məlumatın verildiyi mövzuları tədqiq edir. İlk dəfə olaraq Rafiq Quliyev tərəfindən müasir kino və televiziyada istifadə olunan işıq mənbələrinə xüsusi diqqət ayrılır və bu sahə peşəkarlıqla tədqiq olunur. Eyni zamanda, Rafiq Quliyev müxtəlif parametrli

işıq cihazları və onların klassifikasiyasının verildiyi mövzulara yer verərək projektorlar, natamam və tam yayıcılar, lüminessent lampalı, işıq-diodlu şüalandırıcılar, onların elektrotexniki və fotometrik imkanlarını araşdırır və onlardan istifadə, texniki təhlükəsizlik qaydalarına diqqət yetirir. İşıq filtrlərinin geniş çeşidini, onların optik xüsusiyyətlərini, səpələyici və istiqamətverici qurğulardan istifadə haqqındakı mövzular tələbələrin, gələcək operatorların peşəkar mütəxəssis kimi formalaşmasında əhəmiyyətli rol oynayacaqdır.

Rafiq Quliyevin klassik dərsliklər formatında tərtib etdiyi "Vizual informasiya daşıyıçıları və işığahəssas materiallar" əsərində nəzəri mənbələrdən, dünya kinosunda, eləcə də milli bədii filmlərdə çalışan peşəkar kinooperatorların, fotoqrafiya ilə məşğul olan bədii foto ustalarının təcrübəsindən istifadə olunub. Burada istər bədii, istərsə də sənədli filmlərin istehsalında uğurla işlədilən analoq tipli lentlərin, rəqəmsal işığahəssas qəbuledicilərin həndəsi və fotoqrafik parametrləri, kimyəvi aşkarlama üsulları, "menu" sistemi vasitəsilə bu və ya digər parametr göstəricisinin tənzimlənmə metodları ilə bağlı ən son məlumatlara diqqət yetirilib. Əsəri oxuduqda müəllifin dərin elmi biliklərə əsaslandığının və çoxillik təcrübəyə istinad etdiyinin şahidi oluruq. Rafiq Quliyevin milli kinomuza şöhrət qazandırmış çoxsaylı uğurlu ekran əsərləri və kinooperator sənətinin öyrənilməsinə bağlı nəzəri işləri müəllifin təcrübəsinə, onun nailiyyətlərinə arxalanır və dərslikdə verilən bilgilər özünəməxsus pedaqoji izahı və dili ilə tam aydın şəkildə və sərrast formada oxuculara çatdırılır. Müəllif sübuta yetirir ki, ekranda canlandırılan görüntülərsiz kinonu təsəvvür etmək mümkün deyil və "səssiz kino"da formalaşmış "vizual dil" müasir rəqəmsal texnologiyalar əsrində daha sürətlə təkmilləşir, transformasiyaya uğrayaraq mükəmməlləşir, təsvir plastikasının tərkib hissələri olan kompozisiya, rakurs, kadrdaxili ekspressiya, işıq rəsmi, rəng və montaj, "görümlü obraz"in dəyişən psixoestetik yükünə rəğmən fərqli formalar alaraq yeni məzmun, bədii-estetik dəyər kəsb edir.

Müasir kino sənətini və incəsənətin digər sahələrini müasir texnologiyalardan ayırmaq mümkün deyil. Bu günün tələblərinə uyğun biliklərə sahib olub sənətdə öz sözünü deyə bilən yeni nəsil formalaşmalıdır. Azərbaycan məkanında kino sənətinin əsas sahələrinə bağlı ixtisasların tədrisi ilə məşğul olan yeganə ali təhsil ocağı ADMİU-nun "Kino-televiziya sənətləri" kafedrasının məzunları Rafiq Quliyevin elmi-nəzəri işlərindən bəhrələnərək müasir tələblərə uyğun yeni ekran əsərləri yarada biləcəklər.

2022-ci il may ayının 6-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunan "Ulu Öndər" sənədli filminin təqdimatı keçirilib [5]. ADMİU-nun professoru Rafiq Quliyevin quruluşçu rejissor olduğu filmdə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-cu ildən 2003-cü illədək həyat və fəaliyyətinin

müxtəlif dövrünü əhatə edən kadrlar öz əksini tapır. ADMİU-nun rektoru, professor Ceyran Mahmudova filmin əhəmiyyətindən və bədii məziyyətlərindən danışaraq vurğulayır ki: "Heydər Əliyev müdrik və uzaqgörən siyasəti, unikal liderlik qabiliyyəti, milli iradəsi və vətənpərvərliyi ilə Azərbaycan xalqına nümunə olan görkəmli siyasətçi və qüdrətli dövlət xadimidir. Bu baxımdan da Ulu Öndərin həyatına və fəaliyyətinə həsr olunmuş incəsənət əsərlərinin hazırlanması olduqca əhəmiyyətlidir. Çünki o, öz istedadını, zəkasını, bacarığını Azərbaycan üçün sərf etmiş və milli dövlətçilik ideyalarının formalaşması üçün misilsiz xidmətlər göstərmiş tarixi şəxsiyyətdir. Ümummilli lider təhsilin, mədəniyyətin, incəsənətinin inkişafı və beynəlxalq miqyasda tanınması üçün böyük işlər görmüş, intellektual nəslin yetişdirilməsi istiqamətində misilsiz xidmətlər göstərmişdir" [5].

Tədbirdə professor Oqtay Mir-Qasım, Xalq artisti Zamiq Əliyev, professor Əli Əmirli və Xalq artisti Həmidə Ömərova çıxış edərək Azərbaycan tarixində misilsiz xidmətləri olan qüdrətli dövlət xadimi Heydər Əliyevin mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə qayğısından söz açıblar. Qeyd edilib ki, ADMİU-da çalışan müəllimlərin əksəriyyəti Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimləri kimi Heydər Əliyevin mədəniyyətə göstərdiyi diqqət və qayğının canlı şahidləridir. Bu səbəbdən Rafiq Quliyevin "Ulu Öndər" sənədli filmi müasir dövrümüz üçün aktualdır. Rafiq Quliyev bir mütəxəssis kimi kino sənətinin inkişafı üçün bir sıra mühüm amillər irəli sürərək qeyd edir ki, milli kinomuzun inkişafı üç dayağa söykənməlidir: kino yaradıcılıqdır; kino biznesdir; kino ideologiyadır. Bu baxımdan gələcək Azərbaycan kinosunun həmin tələblərə cavab verəcək səviyyədə olması üçün konkret mexanizmlər işlənmişdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısı 2008-ci il 4 avqust tarixli Sərəncamla "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Proqramda kinofilmlərin istehsalının artırılması, eləcə də, müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur [3].

Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" (ARKA) publik hüquqi şəxs yaradılıb. Bu konsepsiyanın müəlliflərindən olan Avropa Film Akademiyasının üzvü Rafiq Quliyev bildirir ki, "Təşkilatın yaranması ilə Azərbaycan kinosunda ciddi dönüş olacaqdır" [6].

**Ədəbiyyat siyahısı:**

1. Təsviri ifa işi. (ADMİU-nun III kurs kinooperator ixtisası tələbələrinin təsviri ifa işi). --Bakı: Elm və Təhsil, -2015, -160 səh.
2. https://nuhcixan. az/news/cemiyyet/4462-kino-seneti-tariximizi-yasadan-salnamedir
3. *President. Az. "Azərbaycanın kino xadimlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"(az. ). President. az. 01. 08. 2018. İstifadə tarixi:* 2018-08-01.
4. Quliyev, R. "Çövkən" filmini böyük həvəslə çəkmişəm": Film YUNESKO-nun "Qeyri-Maddi Mədəni İrs Siyahısı"na daxil edilib: [rejissor Rafiq Quliyevlə müsahibə] /müsahibəni apardı J. Rzabəyli //Olimpiya dünyası. - 2014. - 1-3 aprel. - S. 3.
5. https://muallim. edu. az/news. php?id=8880&lang
6. https://525. az/news/192075-kino-agentliyine-boyuk-umidler-baglayiriq-rafiq-quliyev

**Рафаил Алиевич Гамбаров**

## РОЛЬ РАФИКА ГУЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО КИНОИСКУССТВА

**Резюме:** В статье рассматриваются заслуги профессора Рафика Гулиева в развитии отечественного кинематографа. Заслуженный деятель искусств Азербайджана, лауреат ордена Славы, режиссер, сценарист, продюсер, главный редактор и опытный педагог Рафик Гулиев внес значительный вклад в развитие отечественного кинематографа. В статье сначала дается краткий обзор возникновения и развития отечественного кинематографа. Далее в статье отражено многогранное творчество Рафика Гулиева. В своих научных трудах Рафик Гулиев затрагивает актуальные проблемы кинематографа. В своих работах он выделяет технику освещения в кино, фотографии и телевидении как актуальную проблему и констатирует, что экранное решение зрительных образов, их донесение до зрителя в выразительной и убедительной форме осуществляется через построение света и его элементов. В то же время, в статье рассматривается документальный фильм Рафика Гулиева «Великий вождь».

**Ключевые слова:** кинематографист, Рафик Гулиев, национальное кино

**Rafail Aliyevich Qambarov**

**RAFIG GULIYEV`S ROLE IN THE DEVELOPMENT OF AZERBAIJANI CINEMA ART**

**Summary:** The article discusses the merits of Professor Rafig Guliyev in the development of domestic cinema. Honored Art Worker of Azerbaijan, laureate of the Order of Glory, director, screenwriter, producer, editor-in-chief and experienced teacher Rafig Guliyev made a significant contribution to the development of domestic cinema. The article first gives a brief overview of the emergence and development of domestic cinema. Further, the article reflects the multifaceted creativity of Rafig Guliyev. In his scientific works, Rafig Guliyev touches upon the actual problems of cinema. In his works, he singles out the lighting technique in cinema, photography and television as an urgent problem and states that the screen solution of visual images, their communication to the viewer in an expressive and convincing form is carried out through the construction of light and its elements. At the same time, the article discusses the documentary film by Rafig Guliyev "The Great Leader".

**Key words:** cinematographer, Rafig Guliyev, national cinema

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**